UOT 330.322.14

Səkinə Etibar qızı MƏHƏRRƏMOVA
Azərbaycan Texnologiya Universiteti, müəllim
sekine_1989@mail.ru

Hafizə Hüseyn qızı HACIYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti, müəllim
haciyeva.hafiza@mail.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.098

TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN AMORTİZASİYASI: DÜZGÜN METOD SEÇİMİNİN ƏHƏMİYYƏTİ VƏ NÜMUNƏLƏR

Xülasə

Tədqiqatın məqsədi – Torpaq, Tikili və Avadanlıqların mühasibat uçotu prinsiplərini, onların dəyərinin formalaşması və təsnifatını, habelə fiziki və mənəvi aşınma mexanizmlərini təhlil etmək; bu aktivlərə tətbiq olunan müxtəlif amortizasiya metodlarının (düz xətt, azalan qalıq, istehsal vahidi) mahiyyətini izah etməklə yanaşı, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin amortizasiya ayırmaları ilə bağlı tələblərini və illik norma dərəcələrini müəyyənləşdirmək.

Tədqiqatın metodologiyası – Məqalədə torpaq, tikili və avadanlıqlar (TTA) haqqında ətraflı məlumat verilmiş, TTA-nın uçotda və vergidə təsnifatına yer ayrılmış, amortizasiya metodları (düz xətt, azalan qalıq, istehsal vahidi) riyazi cəhətdən izah olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqat amortizasiya metodlarının (düz xətt, azalan qalıq, istehsal vahidi) müqayisəli təhlili vasitəsilə müəssisələrə öz aktivləri üçün ən uyğun amortizasiya siyasətini seçməyə kömək edir, bu da məhsulun maya dəyərinin dəqiq müəyyənləşdirilməsinə zəmin yaradır.

Tədqiqatın nəticələri – Tədqiqat uzunmüddətli maddi aktivlərin uçotu və maliyyə hesabatlarında əks etdirilməsi ilə bağlı fundamental və normativ məsələləri aydınlaşdırır. Mühasibat uçotu aktivlərin iqtisadi faydasının tükənmə sürətini daha dəqiq əks etdirmək üçün düz xətt, azalan qalıq, istehsal vahidi və digər metodlardan istifadə etməyə imkan verir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Verilmiş materialın əhatə etdiyi sahə (uzunmüddətli maddi aktivlərin uçotu və amortizasiyası) iqtisadiyyatın fundamental mövzularındandır. Buna görə də, tədqiqatın orijinallığı və yeniliyi mövzuya yeni yanaşmaların və ya müqayisəli təhlilin tətbiqində özünü göstərir. Bu tədqiqatın elmi yeniliyi verilmiş məlumatların sistemləşdirilməsi və tətbiqi aspektləri arasındakı əlaqənin dərinləşdirilməsindədir. Tədqiqat Mühasibat Uçotunun (IFRS prinsipləri) tətbiq etdiyi amortizasiya metodlarını (düz xətt, azalan qalıq və s.) Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (qalıq dəyəri metodu, illik normativlər) məcburi tələbləri ilə kompleks şəkildə müqayisəli təhlilini aparır. Bu, fərqli normativ bazalar arasındakı boşluqları və uyğunluq nöqtələrini aydınlaşdırır.

Açar sözlər: torpaq, tikili və avadanlıqlar (tta), ilkin dəyər, amortizasiya (köhnəlmə), fiziki və mənəvi aşınma, Vergi Məcəlləsi, qalıq dəyəri metodu, düz xətt, azalan qalıq, istehsal vahidi metodları.

Giriş

Hər bir təşkilatın maddi-texniki bazasının özəyini təşkil edən torpaq, tikili və avadanlıqlar dövriyyə aktivlərinə daxil olmayan qeyri-dövriyyə aktivləri kimi qəbul edilir. Torpaq, tikili və avadanlıqların xarakterik cəhəti onların təsərrüfat fəaliyyəti (istehsalat və ya xidmətlər) prosesində uzun müddət iştirak etməsidir. Onlar köhnəlməyə məruz qaldıqca, dəyərlərini müəyyən edilmiş normalar əsasında hissə-hissə məhsulun dəyərinə daxil edir. Bu aktivlər istehsal əməliyyatları zamanı təbii formasını (natural formasını) dəyişmədən saxlayır və eyni zamanda təşkilata əlavə

iqtisadi fayda təmin edir.

Torpaq, tikili və avadanlıqların mahiyyəti və ilkin konsepsiyaları

Torpaq, tikili və avadanlıqlar mühasibat uçotu qeydlərində ilkin dəyəri ilə əks etdirilir. Bu dəyər, onların əldə edilməsinə, quraşdırılmasına və ya hazırlanmasına çəkilən faktiki xərclərin ümumi məbləğinə bərabərdir. Torpaq sahələri istisna olmaqla, müəssisənin mülkiyyətində olan uzunmüddətli maddi aktivlərin ilkin dəyəri müəyyən hallarda dəyişdirilə bilər. Dəyişikliyə səbəb olan amillərə: onların yenidən qiymətləndirilməsi, rekonstruksiya edilməsi, yeni tikinti işləri aparılması, yeni avadanlıqların quraşdırılması və ya müvafiq obyektlərin qismən ləğv edilməsi daxildir.

“Müəssisələrin Mühasibat Uçotunun Hesablar Planı və onun Tətbiqinə dair Təlimat”a əsasən, iqtisadi təhlillərin aparılmasını asanlaşdırmaq məqsədilə, 111 nömrəli “ Torpaq, tikili və avadanlıqlar “ hesabında qeydə alınan əmək vasitələrinin aşağıdakı təsnifatı müəyyən edilmişdir:

- Bina tikililəri: İdarəetmə və ya istehsal məqsədləri üçün istifadə olunan tikililər.
- Qurğular (İnşaatlar): Müxtəlif funksional təyinatlı inşaat strukturları.
- Ötürücü sistemlər: Enerji, istilik, qaz və digər maddələrin ötürülməsinə xidmət edən qurğular.
- Texnika və cihazlar: İstehsal prosesində tətbiq edilən maşınlar və avadanlıqlar.
- Transport vasitələri: Yük və sərnişin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat.
- İstehsalat və təsərrüfat əşyaları: İş alətləri və təsərrüfat ehtiyacları üçün olan avadanlıqlar.
- Canlı aktivlər: İşçi qüvvəsi və ya məhsul əldə etmək üçün istifadə olunan heyvanlar (İşçi və məhsuldar heyvanlar).
- Digər torpaq, tikili və avadanlıqlar: Yuxarıda sadalanan kateqoriyalara daxil olmayan qalan torpaq, tikili və avadanlıqlar. [3, s.153] İstehsalat prosesinin reallaşması üçün əmək vasitələrinin mövcudluğu vacib şərtdir, eynilə material, işçi qüvvəsi və maliyyə resursları kimi. Əmək vasitələri kontingentinə dəzgahlar, aqreqatlar, işlək maşınlar, avadanlıqlar, alətlər, bina konstruksiyaları, tikililər, ötürücü sistemlər, nəqliyyat vasitələri və bu kimi digər elementlər daxildir. Əmək vasitələrinin əsas xüsusiyyəti istehsal dövründə uzun müddət iştirak etmələri və bu proses zamanı təbii formalarını qoruyub saxlamaqlarıdır. Lakin onların dəyəri yeni yaradılan məhsulun (iş və ya xidmətin) maya dəyərinə tədricən köçürülür.Bununla belə, torpaq, tikili və avadanlıqların hamısı TTA kateqoriyasına aid edilmir.

Onların müəyyən bir hissəsi dövriyyə vəsaitlərinin tərkibində uçota alınır. Bu qrupa aid edilən istisnalar aşağıdakılardır: -Qısa istifadə müddətli əşyalar: Dəyərindən asılı olmayaraq, istifadə müddəti bir ildən az olan əşyalar. Xüsusi təyinatlı vasitələr: Dəyərlərindən asılı olmayaraq, fərdi, seriyalı, yaxud kütləvi istehsal üçün nəzərdə tutulmuş xüsusi alətlər və ləvazimatlar. -Aşağı dəyərli aktivlər: Xidmət müddətindən asılı olmayaraq, vahidinin əldəetmə qiyməti bir milyon manatdan az olan əşyalar. -Şəxsi mühafizə vasitələri: Dəyərlərindən və ya ömür müddətlərindən asılı olmayaraq, xüsusi geyimlər, xüsusi ayaqqabılar və yataq ləvazimatları. -Ehtiyat hissələr: Təmir məqsədləri üçün ayrılmış, maşın və avadanlıqların bəzi hissələri, aqreqatları və komplektləşdirməyə xidmət edən digər elementlər. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, müəssisələrin mülkiyyətində olan torpaq sahələri də rəsmi şəkildə torpaq, tikili və avadanlıqların tərkibinə daxil edilir. Lakin diqqət çəkən məqam budur ki, Dövlət Statistika Komitəsinin təsnifatında bu yanaşma tətbiq edilməmişdir, bu səbəbdən də uçot təcrübəsində geniş yayılmamışdır. Müəssisələr fəaliyyətlərində tərkibinə və məqsədli təyinatına görə çox müxtəlif növ uzunmüddətli maddi aktivlərdən istifadə edirlər. Bu aktivlərin uçot və hesabatlarda düzgün əks etdirilməsi üçün onlar geniş təkrar istehsal prosesindəki iştirak xarakterinə, konkret təyinatına, mənsubiyyətinə və istifadə səviyyəsinə əsaslanaraq qruplaşdırılır.

Torpaq, tikili və avadanlıqların istehsal prosesindəki iştirak xarakteri nəzərə alınmaqla, əsasən iki böyük kateqoriyaya ayrılır:

1. İstehsal təyinatlı torpaq, tikili və avadanlıqlar.

Bu qrupa istehsal prosesində bilavasitə iştirak edən və ya onun uğurla həyata keçirilməsi üçün zəruri şəraiti yaradan uzunmüddətli maddi aktivlər daxil edilir. Bura aşağıdakılar aiddir:

- Binalar və tikililər;

- Ötürücü qurğular (sistemlər);
- Maşın və avadanlıqlar kompleksi;
- Nəqliyyat vasitələri;
- Və bunlara bənzər digər istehsal yönümlü uzunmüddətli maddi aktivlər.

2. Qeyri-istehsal təyinatlı torpaq, tikili və avadanlıqlar.

Bu kateqoriyaya isə istehsal fəaliyyəti ilə birbaşa əlaqəsi olmayan, lakin işçilərin sosial ehtiyaclarına xidmət edən və ya mədəni-məişət təyinatlı sahələrə aid aktivlər daxildir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

- Mənzil-məişət təsərrüfatının aktivləri: Avadanlıqları ilə birlikdə yaşayış evləri, hamamlar, camaşırxanalar, bərbərxanalar və s.
- Səhiyyə obyektləri: Xəstəxanalar, ambulatoriyalar, poliklinikalar və s.
- Mədəniyyət və təhsil sahələrinə aid vəsaitlər: Zavod klubları, teatrlar, kitabxanalar, uşaq bağçaları, idman kompleksləri və digər sosial-mədəni obyektlər. [2, s.181]

Torpaq, tikili və avadanlıqların aşınma (köhnəlmə) prosesi və bu aktivlərə tətbiq olunan amortizasiya metodlarının təhlili

Torpaq, tikili və avadanlıqlar istifadə nəticəsində aşınmaya məruz qalır, bu isə onların ilkin keyfiyyətini və tətbiq imkanlarını məhdudlaşdırır. Bu aşınma (köhnəlmə) iki əsas şəkildə – fiziki və mənəvi – təzahür edir.

Uzunmüddətli maddi aktivlərin fiziki aşınması onların bədii keyfiyyətlərini itirməsi ilə nəticələnir və aktivin işlək vəziyyətini pozaraq yararsız hala salır. Digər tərəfdən, uzunmüddətli maddi aktivlərin mənəvi köhnəlməsi ölkələr miqyasında müşahidə edilən elmi-texniki tərəqqi (inkişaf) ilə bilavasitə bağlıdır. Bu proses həm mövcud aktivlərin dəyərinin azalmasına, həm də daha yüksək məhsuldarlığa malik aktivlərin meydana çıxmasına səbəb olur.

Torpaq, tikili və avadanlıqların obyektləri istifadə olunduğu müddətdə (istismar prosesində), ilkin təbii formalarını qoruyub saxlasalar da, zamanla tədricən aşınmaya (köhnəlməyə) məruz qalırlar. Bu köhnəlmə torpaq, tikili və avadanlıqların dəyərinin müəyyən bir hissəsinin itirilməsini ifadə edir. Müəssisə üçün zəruridir ki, aşınmış torpaq, tikili və avadanlıqları yeniləri ilə əvəz etmək və ya təmir işlərini həyata keçirmək üçün lazımi həcmdə maliyyə vəsaitləri mənbəyi yaratsın. Belə bir ehtiyatın toplanması isə torpaq, tikili və avadanlıqların köhnəlmiş dəyər hissəsinin bərpasının (təzələnməsi) hazırlanmış məhsulun maya qiymətinə və ya dövriyyə/satış xərclərinə transfer edilməsi üsulu ilə həyata keçirilir. Məhsulun maya qiymətinə və tədavül xərclərinə aid edilən bu məbləğ məhz köhnəlmə ayırmaları adlandırılır.

Hal-hazırda uzunmüddətli maddi aktivlərin obyektlərinə hesablanan köhnəlmə ayırmalarının təyin edilməsi məsələləri Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan tələblərlə tənzimlənir. Vergi Məcəlləsinin 114-cü bəndində (Maddə 114-də) qeyd olunur ki, amortizasiya ayırmaları və amortizasiyaya məruz qalan aktivlər üzrə gəlirdən çıxılan vəsaitlər müəssisənin iqtisadi fəaliyyətində istifadə olunan uzunmüddətli maddi aktivlər üçün bu bəndin şərtlərinə uyğun olaraq gəlirdən azaldılır. Başqa sözlə, bu xərclər məhsulun, yerinə yetirilən işlərin və təklif edilən xidmətlərin maya dəyərinə daxil edilir. Ayrı-ayrı uzunmüddətli maddi aktiv obyektlərində amortizasiya hesablanması üçün aşağıdakı illik dərəcələr müəyyən edilmişdir:

- Binalar, tikililər və inşaatlar: 7%-ə qədər;
- Maşınlar, avadanlıqlar: 20%-ə qədər;
- Kompüter texnikası: 25%-ə qədər;
- Nəqliyyat vasitələri (avtotransport): 25%-ə qədər;
- İş heyvanları (mal-qara): 20%-ə qədər;
- Geoloji-axtarış işləri və təbii resursların çıxarılmasına hazırlıq məqsədilə çəkilən xərclər: 25%-ə qədər;
- Digər uzunmüddətli maddi aktivlər: 20%-ə qədər. [1]

Vergi Məcəlləsinin prinsiplərinə görə, uzunmüddətli maddi aktivlərin yuxarıda göstərilən qrupları üzrə amortizasiya ayırmaları, hər bir qrupa daxil olan torpaq, tikili və avadanlıqların vergi

ilinin sonunda qalan dəyərinə tətbiq olunmaqla hesablanır. Əgər hər hansı bir kateqoriyaya aid torpaq, tikili və avadanlıqlar üçün müəyyən edilmiş amortizasiya dərəcələrindən daha aşağı bir dərəcə istifadə olunarsa, yaranan bu fərqin sonrakı vergi dövrlərində amortizasiyanın gəlirdən azaldılan məbləğinə əlavə edilməsi mümkün olar. [4, s.306]

Torpaq aktivləri istisna olmaqla, uzunmüddətli maddi aktivlərin tərkibində uçota alınmış bütün aktivlər istər fiziki, istərsə də mənəvi aşınmaya məruz qalır. Bu o deməkdir ki, təbii qüvvələrin, fiziki təsirlərin və iqtisadi amillərin təsiri nəticəsində uzunmüddətli maddi aktivlər tədricən öz funksional qabiliyyətlərini itirir, nəticədə isə tamamilə istifadəyə yararsız vəziyyətə düşürlər. Başqa sözlə desək, bu aktivlər bir sıra texniki çatışmazlıqlar və ya iqtisadi baxımdan sərfəli olmamaq səbəbləri üzündən öz funksiyalarını yerinə yetirməkdə çətinlik çəkirlər.

Təcrübədən məlumdur ki, fiziki cəhətdən aşınmış uzunmüddətli maddi aktiv obyektlərini təmir işləri aparmaq, onları yenidən qurmaq və ya modernləşdirməklə qismən bərpa etmək mümkündür. Lakin bəzən elə hallara rast gəlinir ki, uzunmüddətli maddi aktivlərin təmirinə xərclənən vəsaitlər özünü doğrultmur və iqtisadi nöqteyi-nəzərdən tamamilə əlverişsiz hesab olunur.

Torpaq, tikili və avadanlıqların mənəvi aşınması (köhnəlməsi) onların fiziki aşınmasından əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, uzun müddət istismar edilən uzunmüddətli maddi aktivlər, yenidən qurulma xərclərinə, məhsuldarlıq göstəricilərinə, habelə təmir və saxlanma xərclərinin həcminə görə özlərinin daha yeni, müasir nümunələrindən xeyli geri qalırlar. Ən əsası isə odur ki, mənəvi cəhətdən köhnəlmiş uzunmüddətli maddi aktivlər yeni və daha təkmil avadanlıqlar kimi yüksək keyfiyyətli məhsullar istehsal etmək qabiliyyətinə sahib olmurlar.

Bu səbəbdən də uzunmüddətli maddi aktivləri, xüsusən də onların ən aktiv komponentləri sayılan maşın və avadanlıqları, nəqliyyat vasitələrini, məhsuldar heyvanları və digərlərini vaxtaşırı yeniləmək zərurəti yaranır. Belə bir vəziyyətdə uzunmüddətli maddi aktivlərin sadəcə fiziki cəhətdən aşınması artıq başlıca amil hesab edilə bilməz. İndiki bazar iqtisadiyyatı şəraitində uzunmüddətli maddi aktivlər obyektlərinin yeniləşdirilməsi tələbatı daha çox mənəvi köhnəlmənin və digər iqtisadi determinantların təsiri ilə müəyyənləşir.

Torpaq, tikili və avadanlıqların həm fiziki, həm də mənəvi aşınma nəticəsində yeni aktivlərlə əvəz edilməsi onların sadə təkrar istehsalı kimi başa düşülməlidir. Ümumi qəbul edilmiş qaydalara görə, köhnəlmiş torpaq, tikili və avadanlıqların obyektlərini yeniləri ilə əvəz etmək, yəni sadə təkrar istehsalı həyata keçirmək üçün lazımi maliyyə vəsaitləri yalnız məhsul satışından, göstərilən xidmətlərdən və görülən işlərdən əldə edilə bilər. Satışa çıxarılan məhsul və malların dəyərinin tərkibinə fəaliyyətdə olan torpaq, tikili və avadanlıqların qismən ödənilmiş dəyəri də daxil edilir. Məhz torpaq, tikili və avadanlıqların aşınan hissəsinin dəyərinin tədricən hazır məhsulun maya dəyərinə köçürülməsi prosesi amortizasiya adlandırılır.

İl ərzində daxil edilən və ya istismardan çıxarılan torpaq, tikili və avadanlıqların obyektlərinin kəmiyyətindəki dəyişiklikdən asılı olaraq, amortizasiyanın aylıq məbləğinə müvafiq tənzimləmələr edilir. Belə ki, uzunmüddətli maddi aktiv obyekti istifadəyə verildiyi aydan sonrakı aydan etibarən amortizasiya ayırmalarının həcmi artırılır. Əksinə, maddi aktivlər ləğv edildikdə, satıldıqda və yaxud əvəzsiz şəkildə verildikdə isə amortizasiya məbləği sonrakı aydan etibarən azaldılır.

Eyni zamanda, uzunmüddətli maddi aktiv obyektlərinin ilkin (bərpa) dəyəri tam şəkildə ödənildikdə, onlar üzrə tam bərpa üçün amortizasiya hesablanması prosesi dayandırılır. Qüvvədə olan qaydalara uyğun olaraq, ilkin dəyəri tam ödənilən (amortizasiya 100% həcmində hesablanmış) maşın, avadanlıq və nəqliyyat vasitələrinə amortizasiya ayırmalarının hesablanması dayandırılır. Başqa sözlə desək, yuxarıda sadalanan aktivlərə ilkin dəyərlərindən yuxarı məbləğdə amortizasiyanın hesablanmasına icazə verilmir. Müəssisələr öz sahibliklərində olan maşınlara, avadanlıqlara və nəqliyyat vasitələrinə sürətləndirilmiş amortizasiya dərəcələrini tətbiqetmə səlahiyyətinə malikdirlər. Bu metodun əsas mahiyyəti isə amortizasiya normalarının ildən-ilə artırılması ilə xarakterizə olunur.

İstehsal əməliyyatlarının əsas təkanverici qüvvələrindən biri olan uzunmüddətli maddi aktivlərin dəyəri, istehsalata çəkilən ümumi xərclərin tərkibində öz əksini tapır. Bu, uzunmüddətli

maddi aktivlərin dəyərinin müəyyən bir müddət ərzində istehsal edilmiş məhsulun, görülmüş işlərin maya dəyərinə və ya dövriyyə xərclərinə silinməsi yolu ilə həyata keçirilir. Məhz bu proseslə əlaqədar olaraq, uzunmüddətli maddi aktivlərə amortizasiya (köhnəlmə) hesablanır.

Mühasibat uçotunda bir neçə amortizasiya metodu vardır:

- Düz xətt metodu;
- Azalan qalıq metodu;
- İstehsal vahidi metodu;
- İllərin rəqəm sayı cəminə görə metodu.

Köhnəlmənin (amortizasiyanın) hesablanmasına, aktivin istifadə məqsədilə hazırlandığı (nəzərdə tutulduğu) andan başlanılmalıdır və bu proses yalnız aktivin uçotdan çıxarıldığı (tanınmasının dayandırıldığı) və ya onun dəyərinin tamamilə köhnəldiyi (tam amortizasiya olunduğu) zaman dayandırılmalıdır. Qeyd etmək vacibdir ki, aktivin faktiki olaraq istifadə edilməməsi bu məsələdə əhəmiyyətli bir faktor sayılmır, əsas hədəf onun tələb olunan istənilən vaxtda fəaliyyət göstərməyə qadir olmasıdır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq, uzunmüddətli maddi aktivlərin amortizasiyası (köhnəlməsi) qalıq dəyəri metodu ilə hesablanır. Bu yanaşma, amortizasiya məbləğinin aktivin ilkin dəyəri əvəzinə, hər ilin sonunda qalan dəyəri üzərindən hesablanmasını nəzərdə tutur.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 114.3-cü bəndinə əsaslanaraq, köhnəlməyə məruz qalan aktivlər üzrə tətbiq ediləcək illik amortizasiya dərəcələri müəyyən edilmişdir. Uzunmüddətli maddi aktivlərin təsnifat qrupları üzrə köhnəlmə ayırmaları, hər bir qrupa daxil olan uzunmüddətli maddi aktivlər üçün əvvəlcədən təyin edilmiş amortizasiya dərəcəsini həmin kateqoriyaya aid uzunmüddətli maddi aktivlərin vergi ilinin sonuna hesablanmış qalıq dəyəri üzərinə tətbiq olunmaqla müəyyənləşdirilir. Əgər hər hansı bir kateqoriyaya aid olan uzunmüddətli maddi aktivlər üzrə vergi ili üçün müəyyən edilmiş amortizasiya normalarından daha kiçik bir norma tətbiq edilərsə, bu əməliyyat nəticəsində yaranan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər, bu da vergi planlamasında çeviklik təmin edir.

Bununla yanaşı, binalar, tikililər və qurğular (bundan sonra tikililər adlandırılır) üçün amortizasiya ayırmaları hər bir tikili obyekti üzrə fərdi şəkildə, yəni ayrılıqda aparılmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114.2-ci maddəsində amortizasiyaya məruz qalmayan aktivlərin ətraflı siyahısı təqdim edilmişdir.

Nəhayət, müəssisənin öz mülkiyyətində olan və uzunmüddətli icarə əsasında götürülmüş uzunmüddətli maddi aktivlərin köhnəlməsi (amortizasiyası) haqqında bütün məlumatları sistemləşdirmək və ümumiləşdirmək məqsədilə, hesablar planında 112 nömrəli “Torpaq, tikili və avadanlıqlar – amortizasiya” adlı xüsusi hesab nəzərdə tutulmuşdur. [5, s.8]

Düzxətli üsul tətbiq edilərkən, köhnəlmə ayırmalarının illik məbləği birbaşa olaraq uzunmüddətli maddi aktiv obyektlərinin ilkin (başlanğıc), cari və ya bərpa (yenidən qiymətləndirmə aparıldığı təqdirdə) dəyərindən asılıdır. Həmçinin, bu məbləğ aktivin gözlənilən istismar müddətinə əsaslanaraq müəyyən edilmiş orta illik amortizasiya normasından asılı vəziyyətdə təyin olunur. Bu metodun sadəliyi ondadır ki, aktivin bütün faydalı ömrü boyunca amortizasiya xərci bərabər hissələrlə paylanır, bu da hesablamaların şəffaf və asan olmasını təmin edir.

Nümunə. Müəssisə 01.05.2024 tarixində 320 000 manat dəyərində avadanlıq almışdır. Avadanlığın faydalı istifadə müddəti 8 ildir. Müəssisə maliyyə uçotunda amortizasiyanı proporsional düz xətt metodu ilə hesablayır. 31.12.2025 hesabat tarixində amortizasiya xərcini 26667 qeyd edəcək (320 000/ 8 /12*8 = 26667).

Azalan qalıq metodu tətbiq olunarkən, köhnəlmə ayırmalarının illik həcmi (məbləği) hesabat dövrünün əvvəlinə torpaq, tikili və avadanlıqlar obyektlərinin qalan dəyərinə əsaslanır. Bu məbləğ eyni zamanda həmin aktivlərin faydalı istismar müddətindən asılı olaraq hesablanmış amortizasiya normativindən və əlavə olaraq sürətləndirici əmsaldan asılı vəziyyətdə təyin edilir.

Sürətləndirici əmsal əsasən daha yüksək effektivliyə malik olan maşın və avadanlıqlar üçün, həmçinin yüksək texnologiyalı fəaliyyət sahələrində tətbiq olunur. Müəssisələr sürətləndirilmiş

köhnəlmə dərəcələrini istifadə etmək hüququna malikdirlər. Lakin bu artım əmsalı iki dəfədən yuxarı ola bilməz (yəni, tətbiq olunan normativ iki dəfədən artıq artırıla bilməz).

Nümunə. Müəssisə 130 000 manat dəyərində avadanlıq satın almışdır, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114-cü bəndinə uyğun olaraq müəssisənin illik amortizasiya xərci 26000 manat olacaqdır (130000*20%= 26000).

İstifadə müddətindəki rəqəmlərin cəmi metodu (və ya illərin rəqəm cəmi üsulu) ilə aktivin dəyərinin silinməsi zamanı, uzunmüddətli maddi aktiv obyektinin başlanğıc (ilkin) dəyəri iki əsas amilin nisbətinə vurulur: aktivin hələ istismar edilməmiş qalan ömrünün (faydalı müddətinin), onun ümumi xidmət dövrünün rəqəmlərinin cəminə olan nisbətinə vurulması ilə amortizasiya məbləği müəyyən edilir. Bu metod, köhnəlmə ayırmalarının ilkin illərdə daha yüksək, sonrakı illərdə isə tədricən azalan tempdə hesablanmasına imkan verir.

“Maşın saatı” və ya daha geniş tanınan “İstehsal vahidi” metodu (üsulu), köhnəlmə ayırmalarını aktivin təxmin edilən istehsal qabiliyyətinə və yaxud ehtimal olunan istifadə səviyyəsinə əsaslanaraq müəyyənləşdirilir. Müəssisə bu metodla aktivlə əlaqədar gələcək iqtisadi faydaların hansı istifadə sxemi üzrə tükənməsini daha dəqiq əks etdirirsə, məhz həmin amortizasiya üsulunu seçmək hüququna malikdir. Bu yanaşma, gələcək iqtisadi səmərələrin tükənmə xəritəsi dəyişməyənə qədər hesabat dövründən dövrə ardıcıl və fasiləsiz şəkildə tətbiq olunur.

Nümunə. Nəzərə alaq ki, avadanlığın ilkin dəyəri 10000 manat , avadanlığın faydalı istehsal gücü 6.000 saatdır. Bu, birinci il üçün 800 saat, ikinci il üçün isə 700 saat işləmişdir.

Onda birinci il üçün: 10.000 manat / 6.000 x 800 = 1.333 manat, ikinci il üçün 10.000 manat / 6.000 x 700 = 1.166 manat amortizasiya xərcləri hesablanmalıdır.

İlin sonuna qalıq dəyəri əsasında hesablanmış aktivlər üzrə amortizasiya xərcləri gəlirdən çıxılır.

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi məqsədləri üçün amortizasiya xərclərinin hesablanmasında düzxətli (xətti) metod tətbiq edilir. Bu, faktiki olaraq ölkədəki əksər yerli müəssisələrin vergi hesabatlarında məhz bu üsuldan istifadə etməsi ilə nəticələnir.

Vergi uçotu amortizasiyanın (köhnəlmənin) məsrəflərə sistematik və hissə-hissə paylanmasını tələb edir, çünki əks təqdirdə, müəssisənin uzunmüddətli maddi aktivlərin əldə edilməsinə sərf etdiyi böyük həcmdəki vəsaitin birdəfəlik xərc kimi silinməsi onun faktiki (real) mənfəət qazanma səviyyəsini düzgün qiymətləndirməyə imkan verməz. Bu cür birdəfəlik silinmə, müəssisənin ardıcıl fəaliyyət illəri üzrə mənfəət və zərər hesabatı arasında kəskin və qeyri-real fərqlərin yaranmasına səbəb olur.

Düz xətt metodu hesablanması ən asan metod olduğu üçün adətən müəssisələr öz avadanlıqlarının köhnəlməsini hesablamaq üçün bu metoddan istifadə edirlər.

Azalan qalıq metodunda köhnəlmənin böyük hissəsi ilk illərdə xərcə yazılır, bu isə erkən dövrlərdə vergi bazasının azalmasına səbəb olur. Vergi orqanları isə müəssisələrdə avadanlıqlara köhnəlmə hesablayarkən bu metoddan istifadə etməsini tələb edir.

İstehsal vahidi metodunda aktivin istifadəsi aşağı olduqda, xərc də aşağı olur, bu isə onun real istismar tempini özündə əks etdirir. Bu metoddan nisbətən az istifadə olunur.

Nəticə

Torpaq, tikili və avadanlıqların amortizasiyası müəssisənin maliyyə nəticələrinin düzgün müəyyən edilməsində və aktivlərin real dəyərinin uçotda əks etdirilməsində mühüm rol oynayır. Düzgün amortizasiya metodunun seçilməsi həm mühasibat, həm də vergi uçotu baxımından vacibdir, çünki bu seçim mənfəətin həcminə, vergi öhdəliklərinə və investisiya qərarlarına birbaşa təsir göstərir.

Müəssisələr amortizasiya metodunu seçərkən aktivin istifadə müddətini, texnoloji köhnəlmə sürətini, istismar intensivliyini və gəlir gətirmə qabiliyyətini nəzərə almalıdırlar. Vergi Məcəlləsinin 114-cü maddəsində müəyyən olunmuş normalar bu prosesin qanunvericilik əsasını təşkil edir.

Sonda qeyd etmək olar ki, amortizasiya metodunun məqsədyönlü seçimi müəssisənin maliyyə

fəaliyyətinin şəffaflığını artırmaqla yanaşı, onun aktivlərin real dəyərini düzgün qiymətləndirməsinə və maliyyə hesabatlarının etibarlılığının təmin edilməsinə mühüm təsir göstərir. Düzgün seçilmiş amortizasiya metodu müəssisənin kapital strukturunun idarə olunmasını asanlaşdırır, mənfəət səviyyəsinin obyektiv müəyyən edilməsinə, xərclərin optimallaşdırılmasına və vergi planlaşdırılmasının səmərəliliyinə xidmət edir.

Bundan əlavə, məqsədyönlü amortizasiya siyasəti müəssisənin uzunmüddətli investisiya qərarlarının dəqiq qiymətləndirilməsini, aktivlərin bərpası və yenilənməsi üçün maliyyə ehtiyatlarının vaxtında formalaşdırılmasını təmin edir. Bu da öz növbəsində maliyyə sabitliyinin qorunmasına, dayanıqlı inkişafın təmin edilməsinə və bazar mühitində rəqabət üstünlüyünün saxlanmasına şərait yaradır.

Beləliklə, amortizasiya metodunun düzgün və məqsədyönlü seçilməsi yalnız mühasibat prinsipi kimi deyil, həm də müəssisənin maliyyə strategiyasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Vergi Məcəlləsi.
2. Abbasov Q., Səbzəliyev S., Daşdəmirov Ə., Quliyev V., Sadıqov Ə. Mühasibat (maliyyə) uçotu. Dərslik. Bakı. 2003. səh. 178-181.
3. Rzayev R.Q. Mühasibat uçotu və audit. Bakı. 2006. səh. 152-153.
4. Salahov Ə., Mehdiyev.V. Mühasibat uçotu. Dərslik. Bakı. 2016. səh. 305-306.
5. Tanrıverdiyev Ə.Q. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi. Torpaq, tikili, avadanlıqların və Qeyri-maddi aktivlərin uçotu. Təlim materialı. səh. 7-8.

Секине Этибар кызы Махаррамова
Азербайджанский Технологический
Университет, преподаватель
sekine_1989@mail.ru

Хафиза Гусейн кызы Гаджиева
Азербайджанский Государственный
Аграрный Университет, преподаватель

haciyeva.hafiza@mail.ru

Амортизация земель, зданий и оборудования: важность выбора правильного метода и примеры

Резюме

Цель исследования: Целью исследования является анализ принципов бухгалтерского учета земель, зданий и оборудования (основных средств), формирования и классификации их стоимости, а также механизмов физического и морального износа. В работе раскрыта сущность различных методов амортизации (линейный, уменьшаемого остатка, по единицам продукции) и определены требования и годовые нормы амортизации, предусмотренные Налоговым кодексом Азербайджанской Республики.

Методология исследования: В статье представлена подробная информация о землях, зданиях и оборудовании (основных средствах), их классификации в бухгалтерском и налоговом учете, а также даны математические объяснения методов амортизации (линейный, уменьшаемого остатка, по единицам продукции).

Практическая значимость исследования: Исследование помогает предприятиям выб-

рать наиболее подходящую амортизационную политику для своих активов путем сравнительного анализа методов амортизации (линейный, уменьшаемого остатка, по единицам продукции), что способствует более точному определению себестоимости продукции.

Результаты исследования: Работа раскрывает фундаментальные и нормативные вопросы, связанные с учетом и отражением основных средств в финансовой отчетности. Бухгалтерский учет позволяет использовать различные методы – линейный, уменьшаемого остатка, по единицам продукции и др. – для более точного отражения скорости потребления экономических выгод активов.

Оригинальность и научная новизна исследования: Тематика, охватываемая материалом (учет и амортизация основных средств), относится к фундаментальным вопросам экономики. Оригинальность и новизна исследования проявляются в применении новых подходов и сравнительном анализе. Научная новизна работы заключается в углублении взаимосвязи между систематизацией представленных данных и их практическими аспектами. Исследование проводит комплексный сравнительный анализ методов амортизации, применяемых по стандартам бухгалтерского учета (МСБУ/IFRS), и требований Налогового кодекса Азербайджанской Республики (метод остаточной стоимости, годовые нормативы). Это позволяет выявить различия и точки соприкосновения между различными нормативными базами.

Ключевые слова: Земля, здания и оборудование (основные средства), первоначальная стоимость, амортизация (износ), физический и моральный износ, Налоговый кодекс, метод остаточной стоимости, линейный /уменьшаемого остатка/ метод по единицам продукции.

Sakina Etibar Maharramova
Azerbaijan Technological University, Lecturer
sekine_1989@mail.ru

Hafiza Huseyn Hajiyeva
Azerbaijan State Agricultural University, Lecturer
haciyeva.hafiza@mail.ru

Depreciation of land, buildings and equipment: the importance of choosing the right method and examples

Summary

Purpose of the research: The purpose of the study is to analyze the accounting principles of Land, Buildings, and Equipment (Fixed Assets), the formation and classification of their value, as well as the mechanisms of physical and moral (obsolescence) depreciation. Along with explaining the essence of various depreciation methods (Straight-Line, Declining Balance, Units of Production), the study also aims to determine the requirements and annual depreciation rates related to depreciation deductions under the Tax Code of the Republic of Azerbaijan.

Research methodology: The article provides detailed information about Land, Buildings, and Equipment (PPE), allocates attention to their classification in accounting and taxation, and gives mathematical explanations of depreciation methods (Straight-Line, Declining Balance, Units of Production).

Practical significance of the research: Through a comparative analysis of depreciation methods (Straight-Line, Declining Balance, Units of Production), the study helps enterprises choose the most appropriate depreciation policy for their assets, thereby creating a basis for the accurate determination of product cost.

Research results: The study clarifies fundamental and regulatory issues related to the accounting and presentation of fixed assets in financial statements. Accounting enables the use of different methods–Straight-Line, Declining Balance, Units of Production, and others–to more accurately reflect the rate at which an asset’s economic benefits are consumed.

Originality and scientific novelty of the research: The field covered by the material (accounting and depreciation of fixed assets) is one of the fundamental topics of economics. Therefore, the originality and novelty of the research are reflected in the application of new approaches or comparative analysis. The scientific novelty of this study lies in deepening the relationship between the systematization of the presented information and its practical aspects. The research conducts a comprehensive comparative analysis of the depreciation methods applied under Accounting Standards (MMBU/IFRS principles) and the mandatory requirements of the Tax Code of the Republic of Azerbaijan (Residual Value Method, annual normative rates). This helps clarify the differences and convergence points between various regulatory frameworks.

Key words: Land, Buildings and Equipment (PPE), Initial Cost, Depreciation, Physical and Moral Wear, Tax Code, Residual Value Method, Straight-Line / Declining Balance / Units of Production Methods